# JURNALİST

## İstedadlı yazıçı-jurnalist, dostumuz və qardaşımız Məzahir Əhmədzadənin 70 illiyinə

**... İlk baxışdan çox əsəbi və gərgin insan təsiri bağışlayır Məzahir Əhmədzadə. Bu, ilk baxışdan belədi. Onu tanımaq üçün çox yox, yarım saat, bir saat bəs eləyər ki, bu istedadlı yazıçı-jurnalistin dünya boyda ürəyini görəsən. Və bu dünya boyda ürəkdə Allaha and olsun ki, ancaq sevgi var... məhəbbət var... insanlıq var... Və bir az da yaxınlaşsan, bir az da qəlbini ələ ala bilsən bax, onda görərsən ki, bu sirli dünyanın içində nələr var...**

... Onu 1991-ci ildən tanıyıram. Hələ onda Loğman Rəşidzadənin baş redaktor olduğu "Kənd həyatı" jurnalında məsul vəzifədə çalışırdı. Və tələbə dostum, istedadlı qələm sahibi Loğman Rəşidzadə də hər yazarı yanına dəvət eləməzdi. Gör, Məzahir Əhmədzadəni necə yaxşı tanıyıbsa və ona necə güvənibsə, yanına gətirmişdi. Və mən dostumuz və qardaşımız Məzahir Əhmədzadənin bir-birindən gözəl publisist yazılarını və gözəl şeirlərini hələ ötən əsrin 70-ci illərində oxumuşdum.

... Və görmüşdüm ki, Məzahir heç də adi qələm sahibi, adi yazar, adi jurnalis və adi ziyalı deyil. Söz onun üçün dünyanın ən qiymətli, ən dəyərli varlığıdı.... Söz onun üçün həyat, gün işığı, su, hava deməkdi... Söz onun üçün Allah qədər müqəddəs, övlad qədər əziz bir varlıqdı... Və həmişə o, Sözün üstündə yarpaq kimi əsib, onu qoruyub və axırda da tər-təmiz bulaq suyu kimi Sözü oçerkə, reportaja, felyetona, zarisovkaya çevirərək öz sevimli oxucularına ərmağan eləyib...

### *Məzahirin elə bir böyük ürəyi var ki,*

yenə deyirəm, o hər adamda yoxdu. Bizim əməkdaşlardan kimsə Göyçaya onun yanına gedibsə, evinə aparıb, süfrə açıb, mehmanxanada yox, öz mənzilində saxlayıb. Bax, bunu hər kişi eləməz ey! Bunu o adam eləyər ki, onun ürəyində bir damla da olsun xəbislik, paxıllıq, qısqanclıq olmasın. Bir dəfə də mən qələm dostumuz Məhəmmədəli Mustafa ilə Göyçayda olanda Məzahir müəllimlə görüşdük. Ümumiyyətlə, həmişə o, nəinki bizi, qəzetimizdən rayona ezamiyyətə gedən hər bir əməkdaşı böyük sevgiylə qarşılayıb və bizi də həmin sevgiylə qarşıladı. Dedi ki, səhər-səhərdi, gədək bizə bir stəkan çay içək, sonra iş dalınca gedərik.

Sözün açığı, düşündük ki, yəqin qardaşımız xala-xətrin qalmasın deyə bizi evə dəvət eləyir. Amma sonradan gördük ki, yox, bu insan nə deyirsə ürəkdən, səmimi qəlbdən deyir. Ona görə də Göyçaydakı mənzilinə getdik. Ailəsi, balaları bizi çox böyük hörmətlə qarşıladılar...

... İki daşın arasında bizə süfrə açdılar. Bir-birindən ləziz yeməklər masanın üstünə düzüldü. Sözün düzü, istəmirdik ki, qardaşımızı səhər-səhər əziyyətə salaq. Əvvəl özü çörək kəsdi, bizə uzatdı. Sonra da Allahın verdiyi o nemətlərdən doyunca yedik.

### *Mən onun mənzilində olarkən*

**görmədiyim çox qəribə bir hadisəylə üzləşdim: başqa bir masanın üstündə qəzetimizin 1991-ci ildən həmin günə qədər çapdan çıxmış bütün nömrələrinin səliqəylə toplanmış saylarını gördüm. İnanın, mən onun bu qəzetlə nəfəs almağını bilirdim. Amma "Ədalət"ə bu boyda sevgisini görməmişdim. Və birinci dəfə**



**gördüm və onu alqışladım. Gördüm ki, Məzahir Əhmədzadə balaları qədər elə "Ədalət"i də sevirmiş. Başqaları evə, mənzilə qiymətli mebellər alıb yığırlar. Amma Məzahir müəllim üçün ən qiymətli varlıq elə "Ədalət" qəzetidir. Bu adam qəzetə gəldiyi ilk gündən bu günə qədər onun havasıyla nəfəs alır, onun havasıyla yaşayır, onun havasıyla səhərini açır...**

... İşimizi görüb günorta vaxtı Göyçayda gözəl bir bağın içində olan yeməkxanaya getdik. Orda da Məzahir müəllimi görən kimi yeməkxananın sahibi və xidmətçilər ayağa durdular və bizi böyük sevgiylə qarşıladılar. Yay vaxtı idi, süfrənin üstünə hər şey düzülmüşdü. Hətta yayın ortasında nar şirəsi də tapıb gətirmişdilər. Məzahir dostumuz bilirdi ki, mən içki içən deyiləm. O da hər içkini içən deyil. Özünün xüsusi brend arağı, konyakı, çaxırı olurdu. Və onlardan biri masanın üstünə gətirtdi. Məhəmmədəli Mustafa ilə adama 100 qram konyak "vurdular". Həmin gün bazar günü idi və biz də Bakıya qayıdırdıq. Söhbət yeyib-içməkdən getmir ey, söhbət insanın məhəbbətindən, sevgisindən, qonaqpərvərliyindən gedir. İstədim xəlvət gedib hesabı ödəyim. Ancaq çölə çıxanda və xidmətçiylə söhbət eləyəndə o dedi ki, müəllim, Məzahir müəllim pulu ödəyib. Və Məzahir müəllimin yanında kimsə əlini cibinə salıb yeyib-içməyin pulunu verə bilməzdi. Çünki o deyirdi mən ev sahibiyəm, siz də mənim qonağım. Qonaq heç vaxt ev sahibinin yanında əlini cibinə salmaz...

... O, jurnalistikanın, Sözün həqiqi mənasında fanatıdı... O, böyük jurnalistikanın yolunda bütün sağlamlığını, həyatını və gəncliyini xərcləyib... O, böyük jurnalistikanın yolunda hər cür əzab-əziyyətə, hər cür sıxıntılara tab gətirib... Bu gün Azərbaycan jurnalistikasının şərəfini, ləyaqətini və qürurunu qoruyan bu sənətə sevgi gətirən 10 jurnalist varsa, onlardan biri Məzahir Əhmədzadədir. O, yeganə jurnalistlərdəndir ki, bütün janrlarda yüksək peşəkarlıqla yazı qələmə almağı bacarır. O yaxşı bilir ki, korrospandensiya nədir, məqalə nədir, oçerk nədir, zarisovka nədir, reportaj nədir, felyeton nədir.

### *İstedadlı yazıçı-jurnalist*

hər janrda, tam səmimi deyirəm, unikal və şedevr yazılar qələmə alıb. Bu yazıların mövzusu, rəngarəngliyi və bir-birinə bənzərsizliyi həmişə oxucuların yaddaşında silinməz iz qoyub. Onun yazılarında fəlsəfə də var, elm də var, publisistika da var, bədii təfəkkür də var və ən nəhayət, çox böyük ürək də var. Bu elementlərin birləşdiyi yerdə həmişə bir-birindən gözəl və möhtəşəm bədii yazılar işıq üzü görüb.

Onun bir-birindən gözəl iki kitabı çap olunub. Söhbət heç də kitabdan getmir. Bəzən elə yazı var ki, bir kitaba dəyər. Onun bir kitaba dəyən Göyçayın Nar bayramından yazdığı reportajlar, oçerklər, zarisovkalar inanın, mənim yaddaşımda və qəlbimdə həmişə iz qoyub. Məzahir nədən yazırsa yazsın, hansı mövzuda yazı qələmə alırsa alsın, orda mütləq onun ürəyi, onun bədii təxəyyülü, onun peşəkarlığı görünüb. Min yazının içində onun yazıları orijinallığı, üslub rəngarəngliyi və ən nəhayət, bədii təfəkkür cizgiləri ilə seçilir...

**Məzahir Əhmədzadə həmişə böyük jurnalistikaya ləkə gətirən, qapı-qapı gəzib bu sənəti gözdən salan cızmaqaraçıları çox cəsarətlə və adalətlə ifşa edib. İfşa edib ki, ay zootexnik, ay ferma müdiri, ay baytar həkim, ay bir imla yaza bilməyən nadan, bura sənin yerin deyil. Sən bu sənətə, bu jurnalistikaya yamaqsan. Bax, bunları demək üçün insanda cəsarət, güc və eləcə də ürək olmalıdır. Heç bir jurnalistin deyə bilmədiyi o sözləri o yazar deməyi bacarır. Məzahiri bir də başqalarından fərqləndirən odur ki, 50 illik jurnalistika fəaliyyətində bu sənətə, bu işə şərəf və sevgi qazandırıb. Yenə deyirəm, o, yeganə jurnalistlərdəndir ki, nəyinsə xatirinə heç vaxt baş kiməsə əyməyib. Əksinə, bu sənətin şərəfini və bu sənətin ləyaqətini hər şeydən üstün tutub. Cəmi bir dəfə onun işlədiyi bölgəyə getsən görürsən ki, Məzahir Əhmədzadənin necə böyük nüfuzu, çəkisi var. Vaxtilə "Kommunist", "Sovet kəndi" "Bakinskiy raboçiy" və "Gənclər" qəzetlərinin xüsusi müxbirlərinin necə nüfuzu rus demiş, "vesi" vardısa, bax, onun da bu gün elə ağayana, ləyaqətli sambalı var. Bu sambalı bütün onu tanıyanlar yaxşı görür və bilirlər.**

Zarafat deyil, 50 il jurnalistikada çalışasan və 70 il ömür sürəsən və ləyaqətini də beləcə qoruya biləsən. Bu hər kişiyə, hər jurnalistə, hər yazara nəsib olan keyfiyyət deyil. Məzahir Əhmədzadə üçün dünyanın ən böyük var-dövləti onun seçdiyi və sevdiyi jurnalist sənətidir.Və bu sənət həmişə onu ucaldıb, o da bu sənəti.

### *O, qəzetimizin bölgələr üzrə baş redaktorun müavinidir*

Və Məzahir həm də bizim aramızda olan yeganə yazarlardandır ki, qəzetin hər nömrəsini birinci səhifədən sonuncu səhifəyə qədər oxuyur və öz fikrini bildirir. Və mənə də həmişə Faiq Qismətoğlu yox, Faiq Hüseynov deyir. Bilmirəm, onun nəzərində mən belə qalmışam. Bu özü də bir orijinallıq, qeyri-adi yanaşmadır.

Ad günü redaksiyamıza gəlmişdi. Çox şən, gümrah və nikbin görsənirdi. Hamımız onu qucaqlayıb öpdük və təbrik elədik. Hətta Gülər xanım dedi ki, Məzahir müəllim, heç sizə 70 yaş vermək olmaz. Təbii ki, o da bu sevgidən çox sevindi. Və biz gördük ki, Məzahir müəllimin 70 yaşı tamam olsa da, amma ürəyi çox gənc, cavandı. Əsas yaş deyil, əsas ürəkdi. Heç indiki gənclər onun kimi yazıb yarada bilmir... heç indiki gənclər onun kimi enerjili deyil... heç indiki gənclər onun kimi o qədər ağrı-acıya, sıxıntıya, çətinliyə də dözən deyil... O, baş redaktorla görüşüb birbaşa bölgələrə abunə arxasınca yola düşdü.

Və mən Məzahir müəllimə bir arzumu bildirmək istəyirəm:

- Yetmiş yaşın mübarək, qardaşım! Demirəm, 90 il, 100 il yaşayasan. İndən sonra Allahın verəcəyi ömrü ağrı-acısız, dərdsiz-kədərsiz yola salasan... Demirəm ki, qocalmayasan. Deyirəm ki, heç vaxt darıxmayasan. Axı sən həm də darıxan adamsan. Və bir də deyirəm ki, Allah-Təala səni balaların sarıdan sevindirsin. Və çəkə biləcəyin qədər yük versin. Bu yükü çəkə bilsən, deməli, həmişə üzü günəşə, üzü işığa, üzü sevgiyə doğru addımlayacaqsan...

**... Ayrılanda çöhrəsində bir gülüş, bir sevgi, bir təbəssüm hiss elədim. Heç onu bu qədər nikbin görməmişdim... heç onu bu qədər rahat da hiss etməmişdim... Amma bu dəfə çox rahat, çox sakit, çox da şux görünürdü. Çünki Gülər xanımın sözüylə demiş olsaq, "şık" geyinmişdi və 70 yaşının sevincini bizimlə bölüşürdü...**

**Faiq QİSMƏTOĞLU**

Ədalət.- 2020.- 4 iyun.S. 4.